# YAŞAMAĞIN GÖZƏL ÜZÜ

*Bu dünyada həyatın çox üzünü görmüşəm,*
*Ac üzünü görmüşəm, tox üzünü görmüşəm.*

**Ə.R.Xələfli.**

Əzizimiz Şəddad müəllim! Yaşın 80 illik civarında Sizinlə söz mülkündə görüş təkcə mənim üçün yox, bütünlükdə Azərbaycanımız üçün, xalqımız üçün çox əlamətdardır. Ən azı ona görə ki, indi müstəqilliyimizin Vətənin istiqlal ömrünü yenidən yaşamasının otuz illiyi yaxınlaşır. Bu elə bir zaman tamlığıdır ki, hər kəs üçün hesabat imkanı var. Kim Azərbaycan istiqlalının qorunması naminə hansı işi görüb, neyləyib. Doğrudur, bu sual bir qədər siyasi, bir qədər də ritorik mahiyyət daşıyır. Çünki, Vətən istiqlalının yaşarlılığı hər kəsin milli düşüncəsindən keçir. Bunu da ayrı-ayrı adamlardan yalnız, mənəvi hesabat kimi, hər kəsin öz vicdanı tələb edə bilər.

80 il yaşamağın özü də bir qəhrəmanlıqdır. Bəlkə də, cismani olaraq öz həyatını qorumaq naminə bu ömrü də, bu ömürdən çoxunu da yaşamaq olar. Ancaq, cəmiyyət naminə, milli mənafe naminə mübarizələrdən keçərək yaşamaq asan deyil. Mənə qalsaydı, dostum Şəddad Cəfərovun həyatını mənəvi saflıq uğrunda mübarizənin qəhrəmanlıq yolu kimi tərənnüm edərdim.

Sizin zəngin və mənalı həyatınızın tədqiqatçısı kimi ömür yolunuza yaxşı bələdəm. Bilirəm ki, Siz həyatın çox üzünü görmüsünüz; lap elə poetik düşüncədən keçirərək epiqrafa çəkdiyim misranın mahiyyətində ifadə olunan həyatın acı tərəflərini də, şirin tərəflərini də... amma, acı tərəflər Sizi bürüşdürüb, bir şəxsiyyət olaraq sındıra bilmədiyi kimi, şirin tərəflər də mənəvi mühitinizin tarazlığını poza bilməyib. Bütün hallarda Siz insanlıq idealına sadiq qalmısınız.

Moskvada Ulyanovskida naşirlik, elmi-pedaqoji fəaliyyətinizin yaşarı izləri var. Bu artıq ayrıca öyrənilesi tarixdir. Çünki, həmin tarixin ən dəyərli səhifələrində Sizin elmi axtarışlarınız haqqında, poliqrafiyanın elm kimi öyrənilməsi baxımından fəaliyyətiniz haqqında bilgi verən dəyərli mənbələr var. Bu mənbələr sizin yuxusuz gecələriniz, axtarışlarınız sayəsində yazıb o vaxtki sovet məkanının nüfuzlu qəzet və jurnallarında dərc etdirdiyiniz elmi məqalələrinizdir.

Hər vaxt düşünmüşəm ki, ziyalı adlanan kəsin fəaliyyəti müəyyən ixtisasla məhdudlaşa bilməz. Bu mənada Siz ən yaxşı örnəksiniz. Çünki, ilk gənclik illərinizdən bəri sahibləndiyiniz poliqrafiya ixtisasına qapanıb qalmamısınız. Doğrudur, bu sahənin elmi əsaslarının yaradılmasında böyük işlər görmüsünüz. “Kitab gözəliyinin elmi mahiyyəti”, “Kitab çapı”... və digər elmi əsərləriniz, monoqrafiyalarınız elmi fəaliyyətinizin dəyərli izləridir. Və Siz bunlarla kifayətlənsməyərək, bədii yaradıcılıqla, publisistika ilə də yaxından məşğul olmusunuz. Və beləliklə “Ötən illərin əhvalatları” kimi dəyərli yumoristik hekayələr kitabınız həm Azərbaycan dilində Bakıda, həm də Rus dilində Ulyanovski şəhərində yüksək tirajla nəşr olunub.

*(Davamı 16-cı səhifədə)*

Kredo 2020.- 16 yanvar.- S.1;16.

*(Əvvəli 1-ci səhifədə)*

# YAŞAMAĞIN GÖZƏL ÜZÜ

Təkcə bu kitabın bədii siqləti göstərir ki, Siz həyatı həm də obrazlı şəkildə kifayət qədər mükəmməlliyi ilə qavrayırsınız.

Təsadüfi deyil ki, Siz hələ sovetlər dönəmində SSRİ Jurnalistlər İttifaqının üzvü idiniz. Elə indi də Azərbaycan Yazıçılar Birliyinin və Jurnalistlər birliyinin üzvü olaraq ədəbi mədəni tədbirlərdə yaxından iştirak edir, dəyərli ağsaqqal tövsiyələrinizi əsirgəmirsiniz. Bütün bunlar göstərir ki, Siz bu gün də həyatınızın 80 illik zirvəsində də cəmiyyətdən kənarda deyilsiniz, insanlarla birgəsiniz. Cəmiyyətin həyatı ilə, ritmilə birgə nəfəs alırsınız. Bu da onu göstərir ki, Sizin timsalınızda müdriklər, dədə-baba dililə desək, ağsaqqallar cəmiyyətin qaynar həyatından kənarda qala bilməzlər. Ən başlıcası, ona görə ki, cəmiyyətin Sizin kimi insanlara ehtiyacı var.

Bütün bunlar yaşamağın gözəl üzüdür.

Ancaq həyatın acılıqlarından da qaçmaq olmur. Bu günlərdə həyatınızda baş verən itki bütün yetirmələrinizi, dostlarınızı, o cümlədən bizim "Kredo" qəzetinin əməkdaşlarını da göynətdi. Həyat yoldaşınız Fatma xanım Əli qızı dünyasını vaxtsız dəyişdi. Ancaq bir təskinliyiniz bu acılıqların hamısına cavabdır. Ağıllı övladlar böyütmüsünüz, nəvələr var.

...Nə qəm, karvan öz yolundadır.

Zamanın külələri hansı tərəfdən əssə belə, Sizin ədəbi-yaşarı izinizi bu dünyanın tarix səhifələrindən silə bilməz.

***Əli Rza XƏLƏFLİ***
***14.01.2020***